# HEYDƏR ƏLİYEV VƏ MSTİSLAV ROSTROPOVİÇ DOSTLUĞUNUN AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNƏ TÖHFƏSİ

*Günel SEYİDOVA*

*Məqalədə Heydər Əliyev və Mstislav Rostropoviçin dostluq münasibətləri timsalında Azərbaycanın musiqi mədəniyyətinə verdiyi töhfələrdən söhbət açılır. Burada H.Əliyevin xalqın milli və mədəni dirçəlişinə həssas yanaşması, M. Rostropoviçə qayğıkeş münasibəti və maestronun mədəniyyətimizin inkişafı üçün gördüyü işlər vurğulanır. Bu baxımdan, H. Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə vətəninə qayıdan dünya şöhrətli musiqiçi çoxsaylı konsertlər, ustad dərsləri vermiş, gənc musiqiçilərə öz dəstəyini əsirgəməmişdir. O cümlədən, M. Rostropoviç həyat yoldaşı Qalina Vişnevskaya ilə birlikdə Azərbaycanda bir sıra sosial layihələrdə yaxından iştirak etmişdir. Məqalədə M. Rostropoviçin göstərdiyi xidmətlərə görə verilən mükafatlar, orden və medallardan da bəhs olunur.*

*Açar sözlər: Heydər Əliyev, Rostropoviçlər, mədəniyyət, töhfə, violonçel, yubiley, festival, təltiflər.*

*"... Siz böyük insansınız. Elə bir insan ki, müharibəni dayandırmış, öz xalqını, bu torpaqdakı sülhü, əmin-amanlığı qoruyub saxlamısız."*
**Mstislav Leopoldoviç Rostropoviç**

Heydər Əliyev elə bir unudulmaz şəxsiyyətdir ki, yaşadığı dövr ərzində gördüyü əməllər ilə insanların yaddaşında dərin və silinməz izlər buraxmışdır. Daima dövlətinin qabaqcıl ölkələr ilə ayaqlaşması uğrunda misilsiz işlər görmüş, öz xalqının qayğısına qalmış, onun milli dirçəlişi, rifah halının yaxşılaşması naminə əlindən gələni əsirgəməmişdir. H. Əliyev güclü idraka malik siyasətçi olmaqla yanaşı, daxilən həssas, incə musiqi duyumuna malik, romantik təbiətli şəxs olmuşdur. Məhz onun bu daxili keyfiyyəti xalqının yaşantılarını, duyğularını daha dərin anlamağa kömək edirdi. "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" deyən dahi şəxsiyyət özünəməxsus müdrikliyi ilə həqiqəti qəti şəkildə mənimsəmişdi ki, mədəniyyətin, mənəviyyatın tərəqqisi ilə müşayiət olunmayan iqtisadi inkişaf bütövlükdə cəmiyyətin yüksəlişini, xüsusilə də onun davamlı xarakter almasını təmin edə bilməz. Bu zəmindən, H. Əliyevin rəhbərliyi illərinə təsadüf edən Azərbaycanın intibahını şərtləndirən, onu səciyyələndirən mühüm amillər sırasında təhsilə, elmə, mədəniyyətə göstərdiyi xüsusi qayğı diqqəti cəlb edir. Onun təşəbbüsü ilə xalqımızın milli-mədəni inkişafı uğrunda həyata keçirdiyi bir sıra tədbirlər - görkəmli xadimlərin, bəstəkarların, yazıçıların, şairlərin, rəssamların ev-muzeylərinin yaradılması, yeni əsərlərin səhnələşdirilməsi, mütəmadi olaraq konsert gecələrinin təşkili, yubileylərin keçirilməsi mənəvi yüksəliş tarixinin inkaredilməz reallığıdır.

"Hər cür var-dövlət də, sərvət də gəldi-gedərdi. Dəyərli olacaq şey mənəviyyatdır, səmimi dostluqdur, sədaqətli yoldaşlıqdır" - deyən H. Əliyev hər zaman dostluğa böyük önəm verər və güclü dostluq əlaqələri yaradardı. Bu baxımdan, iki unudulmaz şəxsiyyətin H. Əliyev və əslən bakılı dünya şöhrətli violonçel ifaçısı, ictimai xadim, dirijor, pedaqoq M. L. Rostropoviçin dostluğu musiqi mədəniyyətimiz inkişafında misilsiz rol oynamışdır.

Musiqi tarixində silinməz izlər qoymuş Rostropoviçlər nəslinin ilk nümayəndələrindən biri olan Mstislav Leopoldoviç Rostropoviç yaradıcılığının əsrarəngiz aləmi dünya miqyasında məşhurluq əldə etmişdir. Müasir musiqinin inkişafına əhəmiyyətli töhfələr vermiş böyük sənətkar violonçel ifaçılığı tarixində yeni bir dövr açmış və ən mötəbər konsert salonlarında simfonik orkestrin dirijoru kimi çoxsaylı çıxışları ilə ümumbəşər mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir. 17 il ərzində Vaşinqtonda Milli Simfonik Orkestrinin aparıcı dirijoru və bədii rəhbəri kimi işləmişdir. 1993-cü ildən Moskva Konservatoriyasının fəxri professoru, Fransanın İncəsənət Akademiyasının həqiqi üzvü, dünya ölkələrinin 50-dən artıq universitetinin fəxri doktoru olmuşdur. Incəsənət aləmində istedadının ən şərəfli zirvəsinə çatan M. Rostropoviç demək olar ki, bütün dövlətlərin ən yüksək orden və medallarına, mükafatlarına, eləcə də fəxri doktor rütbələrinə layiq görülmüşdür. Həmçinin, öz doğma vətəni Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsi və

onun musiqi sənətinin inkişaf etdirilməsi sahəsində də Rostropoviçin müstəsna xidmətləri vardır. Qeyd etmək lazımdır ki, Maestro Mstislavın atası məşhur musiqiçi Leopold Rostropoviç də Azərbayanda gələcək musiqiçilərin yetişməsində az əmək sərf etməyib. 1925-1931-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında pedaqoq kimi çalışmış və tələbələrindən istedadını əsirgəməyərək özünəməxsus ifaçılıq qabiliyyətini bölüşmüşdür. Onun tələbələri arasında Asəf Zeynallı, Əbdülrəhman Kərimov, Hüseyn Veysov, Ələkbər Daşdəmirov, German Krupkinin adlarını çəkmək olar.

Bir zamanlar baş verən repressiyalar bir çox azərbaycanlının həyatında ağır izlər saldığı kimi Rostropoviçlər ailəsinin də taleyindən yan keçməmişdir. Bu səbəbdən qərbə üz tutan gənc M. Rostropoviç bir də o zaman doğma vətəninə qayıtdı ki, onu artıq dünyanın hər yerində tanıyırdılar. Belə nüfuzlu və məşhur insanın vətənə dönməsi ümummilli liderimiz H. Əliyevin xidməti idi. 1971-ci ildə Bakıya qayıdan həmyerlimiz mədəniyyət xadimlərinin - Q. Qarayev, T. Quliyev, A. Rzayev, violonçelist S. Əliyev, pianoçu F. Bədəlbəyli, rejissor T. Kazımovskinin əhatəsində böyük dəyər görmüş və rəğbətlə qarşılanmışdır.

H. Əliyevin göstərişi ilə 1997-ci ildə M.Rostropoviçin Bakıda 70 illik yubileyi təntənəli formada qeyd olundu. Sevindirici bir haldır ki, Bakıya təkcə M. Rostropoviç yox onun xanımı Qalina Vişnevskaya və ailəsinin digər üzvləri də təşrif buyurmuşdular. Silsilə tədbirlər çərçivəsində keçirilən konsert və görüşlər dünya musiqi mədəniyyəti tarixində Azərbaycan xalqının özünəməxsus yeri olduğunu təsdiqləmək idi. Bu cür görüşlər həm də M. Rostropoviç kimi şəxsiyyətin ürəyində vətən eşqini daha da alovlandırmaq, bu müqəddəs hissləri qəlbində əbədiləşdirmək idi. "Siz violonçel sənəti tarixinə bu alət haqqındakı təsəvvürü kökündən dəyişdirmiş bir ustad kimi əbədi daxil olaraq öz ifaçılıq, dirijorluq, bəstəkarlıq və pedaqoji fəaliyyətinizlə elə bir təzahürü nümayiş etdirə bildiniz ki, onu cəsarətlə Rostropoviç fenomeni adlandırmaq olar...". Ümummilli liderimizin öz dostunun - M.Rostropoviçin ünvanına söylədiyi fikirlərdən onun XX əsrin musiqi sənəti və ictimai həyatında müstəsna yer tutan şəxsiyyət olmağından xəbər verir. Bakıda keçirilən 70 illik yubileyi ərəfəsində qərara alınan və 1997-ci ildən sonra M.Rostropoviçin hər il on günlüyünə Azərbaycana gələrək ustad dərsləri verməsi ölkəmizin milli-mədəni həyatına böyük töhfə olmuşdur. O cümlədən, M. Rostropoviç həyat yoldaşı Qalina Vişnevskaya ilə birlikdə Azərbaycanda bir sıra sosial layihələrdə yaxından iştirak etmişdir.

Maestronun təşəbbüsü ilə həyata keçirilən digər təqdirəlayiq addım Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin yeni musiqi alətləriylə təmin edilməsidir. Belə ki, M. Rostropoviçin doğma vətəni Bakıda qeyd edilən 75 illik yubileyi ərəfəsində - 28 fevral tarixində Respublika Sarayında (indiki Heydər Əliyev sarayı) Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri üçün Yaponiyanın "Yamaha" firmasının hazırladığı musiqi alətlərinin təntənəli təqdimat mərasimi olmuşdur. Mərasimdə Azərbaycan Respublikasının sabiq mədəniyyət naziri Polad Bülbüloğlu çıxışında belə qiymətli hədiyyəyə görə Yaponiya hökumətinə təşəkkür etmiş, habelə, milli orkestr üçün musiqi alətləri əldə etməkdə göstərdiyi köməyə görə M. Rostropoviçə dərin minnətdarlığını bildirmişdi. O, həmçinin, H. Əliyevin Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinə necə diqqət və qayğı göstərdiyini böyük fəxrlə vurğulamışdır.

"...Son illərdə siz Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsində və musiqi sənətinin inkişafında böyük rol oynamısız. Sizin Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestri ilə gərgin işiniz, Bakı Musiqi Akademiyasında apardığınız ustad dərsləri böyük əks-səda doğurmuş və əhəmiyyət kəsb etmişdir. Bütün bunlar Azərbaycan musiqiçilərinin böyüməkdə olan nəsillərinin tərbiyə edilməsində keyfiyyətcə yeni səviyyəyə nail olmağa kömək edir..." bu sözləri H.Əliyev 13 mart, 2002-ci il tarixində M. Rostropoviçin 75 illik yubileyi münasibətilə göndərdiyi təbrik məktubunda qeyd etmişdi.

M. Rostropoviçin bir arzusu da Azərbaycan Dövlət Filarmoniyasının yeni üslubda, müasir görünüşdə musiqiçilərin istifadəsində görmək, orada H.Əliyevin yubileyi şərəfinə konsert proqramı ilə çıxış etmək olmuşdu. Məhz belə bir fikir Azərbaycanda keçirilən yuxarıda sözügedən yubiley günlərində M. Rostropoviçin H. Əliyevlə baş tutan söhbətində irəli sürülmüşdür: "Mənim dostlarım, ...gəlin kömək edək, ...gələn il mayın 10-nadək filarmoniyanı bərpa edək. ...Bundan sonra biz orada 10 maya həsr olunmuş konsert keçirərik...". İdeyaya nail olunsa da, bunu görmək dahi rəhbərimizə qismət olmamışdır. Lakin, bu gözəllik abidəsini yenidən xalqa və həyata qaytaran məhz H.Əliyev oldu. M. Rostropoviç 2004-cü il yanvarın 27-də Bakıya etdiyi bir günlük səfəri zamanı prezidentimiz İlham Əliyev ilə görüşündə bu sözləri söyləmişdir: "O, məni Azərbaycana qaytardı, Azərbaycanı isə Vətənim kimi mənim qəlbimə qaytardı. Odur ki, mən bütün ömrüm boyu onun barəsində məhəbbətlə, minnətdarlıqla düşünəcəyəm". Həmən günün axşamı Azərbaycan Dövlət Filarmoniyasının təmirindən sonrakı açılış mərasimində maestro Rostropoviç əziz dostu H. Əliyevin nurlu xatirəsinə dərin hörmət və ehtiram əlaməti olaraq violonçeldə İ. S. Baxın iki nömrəli süitasından "Sarabanda"nı ifa etmişdir. Maestro qeyd edir: "Sarabanda, mənim üçün bir dua kimi səslənir. Özü də bu hansısa dinə aid dua deyil. Bu, bütün insanlar üçün duadır".

M. Rostropoviçin Bakıya növbəti gəlişi 18 sentyabr "Musiqi Günü"nə təsadüf etmişdi. Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunan konsert onun ifasında səslənən Ü. Hacıbəylinin "Koroğlu" operasından uvetüra ilə başlamışdır. Rostropoviçin Bakıya sonuncu gəlişi 2005-ci il, mart ayında olmuşdu. Bu dəfə filarmoniyada xeyriyyə konserti ilə çıxış etmişdir. Həmçinin, ulu öndər H. Əliyevin məzarını ziyarət etmiş və bu sözləri söyləmişdir: "Harda olsam, yenə də Bakıya qayıdacağam". Bu dahi musiqiçinin doğma yurda son gəlişi olsa da, əbədiyyətə qovuşan sənətkarın ruhunun daima vətənlə bağlılığının danılmaz etirafıdır.

Heydər Əliyev Fondu, Mstislav Rostropoviç Fondu, Mədəniyyət və Turizm Nazirliyinin iştirakı ilə ilk dəfə 2007-ci ildən başlayan və bu günümüzədək keçirilən M. Rostropoviç adına Beynəlxalq musiqi festivalı artıq özünəməxsus tarixi ənənəyə çevrilib. Əsası 2006-cı ildə Bakıda M.Rostropoviç tərəfindən təşkil edilən Dmitri Şostakoviçin 100 illik yubileyinə həsr olunmuş bayram tədbirində qoyulan bu ideyanın yaranması məhz H. Əliyev və M. Rostropoviçin dostluq əlaqələri ilə bağlı idi. 2007-2019-cu illər ərzində 10 beynəlxalq musiqi festivalı keçirilib. 2019-cu il 23-27 aprel tarixlərində Bakıda baş tutan X Beynəlxalq Mstislav Rostropoviç Festivalında Rusiya, Almaniya, İsveçrə, İspaniyadan dünya şöhrətli musiqiçi və kollektivlər, o cümlədən Lozanna Kamera Orkestri, Boris Eyfmanın Akademik Balet Teatrı (Sankt-Peterburq), "Münchenklang" Orkestri iştirak etmişdir. Həmçinin, festival çərçivəsində 26 aprel Heydər Əliyev Sarayında keçirilən konsert dirijor Fuad İbrahimovun rəhbərliyi altında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrin çıxışı ilə yadda qalmışdır. Proqramda solist Pablo Fernandesin (cello) təfsirində Cüzeppe Verdi, Kamil Sen-Sans və İqor Stravinskinin əsərləri səslənmişdir. Göründüyü kimi, bu zəmində qurulan festivalın əsas məqsədi dünyanın bir sıra ölkələrindən tanınmış musiqiçiləri ölkəmizə dəvət edərək mədəniyyətimizi zənginləşdirmək və milli musiqi xəzinəmizi dünya miqyasında tanıtmaqdır.

M. Rostropoviçin Azərbaycan musiqi mədəniyyəti sahəsindəki xidmətləri, xüsusilə, beynəlxalq mədəni əlaqələrin yaranıb möhkəmlənməsindəki rolu H.Əliyev tərəfindən böyük diqqət və ehtiramla qarşılanmışdı. Belə ki, Bakıda 1967-ci ildən fəaliyyətə başlayan Leopold və Mstislav Rostropoviç adına 21 nömrəli musiqi məktəbinin, 4 mart, 2002-ci il Rostropoviçlər küçəsində Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyinin (1925-1931-ci illərdə bu evdə yaşamışdılar) yaradılması, H. Əliyev tərəfindən 1997-ci ilin aprel ayında "Şöhrət" ordeni, 2002-ci ilin mart ayında ən ali mükafat olan "İstiqlal" ordeni ilə təltif olunması görkəmli sənətkarın şəxsiyyətinə olan dərin minnətdarlıq hissinin bariz nümunəsi idi. Daha sonra əvvəzolunmaz musiqiçinin dəyərli sənətinə göstərilən dərin ehtiram ümummilli liderimizin layiqli davamçısı cənab prezidentimiz İlham Əliyev tərəfindən də davam etdirilmişdir: 2007-ci il, 28 mart tarixində M. Rostropoviçin 80 illik yubileyi münasibətilə imzalanmış sərəncama əsasən maestro "Heydər Əliyev" ordeni ilə təltif olunmuşdur. Həmçinin, İ. Əliyev 10 fevral, 2017-ci ildə Mstislav Rostropoviçin Azərbaycanda 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə sərəncam vermişdir.

M. Rostropoviç etiraf etmişdir: "Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz - xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir insan ki, müharibəni dayandırmış, öz xalqını, bu torpaqdakı sülhü, əmin-amanlığı qoruyub saxlamısız." Həqiqətən də bu sözlər özünün parlaq təsdiqini tapmışdır. Dar günündə xalqına dayaq olan onun dirçəlməsi, inkişafı, uğurlu gələcəyə nail olması yolunda istər siyasi, iqtisadi, istərsə də mədəni mövqedən çıxış edən ümumilli liderimiz H. Əliyevin xidmətləri dünya miqyasında tanınaraq böyük əks-səda doğurmuş, yaddaşlarda, ürəklərdə əbədi olaraq həkk olunmuşdur.

## ƏDƏBİYYAT


1. Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar Mart, 1997 - may, 1997. K.: 9 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. B., Azərnəşr, 2000, səh. 235-270.
2. Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Noyabr, 2001- mart, 2002 /H. Əliyev; burax. məs. R. Mehdiyev K.: 37.- Bakı : Azərnəşr , 2011.- s. 414-420.
3. Heydər Əliyev: biblioqrafiya /Layih. rəhb. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2018.- s. 60
4. Ramiz Mehdiyev, akademik //"Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: Yanvar 2002-dekabr 2006".- Bakı, 2007.- Cild 2.- S.352-386.
5. http://anl.az/down/medeniyyet2007/mart/medeniyyet2007_mart_315.htm
6. http://www.anl.az/down/meqale/azerbaycan/2017/aprel/539905.htm
7. https://president.az/articles/22749/print
8. https://www.realtv.az/news/az/1410/Dnya-hrtli-musiqii-Mstislav-Rostropoviin-anadan-olmasndan-91-il-tr
9. https://medeniyyet.az/page/news/48142/Bakida-novbeti-Mstislav-Rostropovic-festivali.html
10. https://azertag.az/xeber/GORKAMLI_MUSIQICHI_MSTISLAV_ROSTROPOVICH_VATANINA_GALMISDIR-960212
11. https://azertag.az/xeber/MSTISLAV_ROSTROPOVICH_HEYDAR_ALIYEV_MANI_AZARBAYCANA_AZARBAYCANI_ISA_VATANIM_KIMI_MANIM_QALBIMA_QAYTARDI_AZARBAYCAN_PREZIDENTI_ILHAM_ALIYEV_GORKAMLI_MUSIQICHI_MSTISLAV_ROSTROPOVICHI_QABUL_ETMISDIR-304912


---


*В статье рассматривается вклад Гейдара Алиева и Мстислава Ростроповича в музыкальную культуру Азербайджана благодаря их дружеским отношениям. Здесь, на фоне чуткого подхода Г. Алиева к национально-культурному возрождению народа, подчеркивается его заботливое отношение к М. Ростроповичу и работа маэстро по развитию нашей культуры. С этой точки зрения всемирно известный музыкант, вернувшийся на родину по инициативе и поддержке Гейдара Алиева, оказал беспрецедентные услуги. Маэстро проводил мастер-классы, многочисленные концерты, поддерживал молодых музыкантов, а также с женой Галиной Вишневской принимал участие в ряде социальных проектов в Азербайджане. В статье также упоминаются награды, ордена и медали за заслуги М. Ростроповича.*


***Ключевые слова:*** *Гейдар Алиев, Ростроповичей, культура, дар, виолончель, юбилей, фестиваль, награждения.*



*The article discusses the contribution of Heydar Aliyev and Mstislav Rostropovich to the musical culture of Azerbaijan through friendly relations. Here, against the background of H. Aliyev's sensitive approach to the national and cultural revival of the people, his caring attitude to M. Rostropovich and the work done by the maestro for the development of our culture are highlighted. From this point of view, the world-famous musician, who returned to his homeland on the initiative and organization of Heydar Aliyev, rendered unparalleled services. He gave master classes, gave numerous concerts, supported young musicians, and together with his wife Galina Vishnevskaya took part in a number of social projects in Azerbaijan. The article also mentions awards, orders and medals awarded for the services rendered by M. Rostropovich.*


***Keywords:*** *Heydar Aliyev, Rostropovichs, culture, contribution, cello, anniversary, festival, awards.*



Elmi rəhbər: BMA-nın professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru ***Elnarə Dadaşova***